# Lənkəran: Səyyar görüşlər yerlərdə həyatın nəbzini tutmağa kömək edir

***Azərbaycan Prezidenti İlham Əliyevin paytaxtda və bölgələrdə ictimaiyyət nümayəndələri ilə, ayrı-ayrı sahələrin adamları ilə müntəzəm görüşlər keçirməsi xalq-iqtidar birliyinin əyani təzahürüdür. Eyni zamanda, bu örnək ölkə başçısına son dərəcə inanan, onun siyasətini ürəkdən bəyənən, yazılı və ya şifahi müraciətlərinin mütləq diqqət çəkəcəyinə əmin olan vətəndaşların dövlətçiliyimizə etimadını birə-beş gücləndirir.***

Prezidentin tapşırığı ilə yerli icra hakimiyyəti orqanları rəhbərləri də vaxtaşırı kənd və qəsəbələrdə vətəndaşların qəbulunu keçirir, hər kəsin qayğıları ilə maraqlanırlar. Dövlətin hər zaman öz vətəndaşının yanında olması həm də əhalinin ictimai fəallığının artmasına səbəb olub. "Cənub mirvarisi" sayılan Lənkəranda da səyyar qəbullarla yerlərdə həyatın dəqiq nəbzi tutulur, rəhbər şəxslərin sıravi adamlarla işgüzar görüşləri yaddaqalan olur. Təmaslar cari ildə daha da intensivləşib.

Şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşov idarəetmənin bu cür canlı ünsiyyət formalarına üstünlük verir, mövcud vəziyyətlə yerində tanış olur, çox vaxt kəndlilərin fərdi təsərrüfatlarına, evlərinə də baş çəkir. Kömək üçün konkret əməli tədbirlər görülməsini təmin edir. Yerli icra orqanının cari və perspektiv fəaliyyət planları müəyyənləşdirilərkən əhalinin tələb və təkliflərinə beləcə mühüm önəm verilir.

Ötən ay rayon rəhbərliyi Şıxəkəran, Vilvan, Viravul kəndlərində, Gərmətük qəsəbəsində yüzlərlə vətəndaşın iştirakı ilə yaddaqalan qəbul-görüşlər keçirib. Sakinləri narahat edən məsələlər bir-bir qeydiyyata alınıb və həlli nəzarətə götürülüb. Biz həmin ərazilərdə qaldırılan məsələlərin icra vəziyyəti ilə maraqlandıq və böyük əksəriyyətinin artıq həllini tapdığını öyrəndik. Məsələn, deyildi ki, mart ayında güclü yağışların yağması nəticəsində təsərrüfatlara və həyətlərə dəyən ziyanın aradan qaldırılması üçün gündəlik tədbirlər görülüb. Hər gün ərazilərə gedərək, dizəcən suya, palçığa batan məmurların əsas məramı bu olub ki, camaata məhz vaxtında köməklik göstərilsin.

Görüşlərdə qaldırılan məsələlər xarakter etibarı ilə əsasən sosial yönümlü olur. Müsbət haldır ki, görüşlər zamanı hər kəs çəkinmədən sözünü deyə bilir, diqqət göstəriləcəyinə inanır. Bu, vətəndaş məmnunluğuna nail olmaqdır. Onu da xüsusi vurğulayaq ki, Vətən





müharibəsindən sonra heç bir şəhid ailəsi, heç bir qazi bir gün belə diqqətdən kənarda qalmayıb. İş üçün müraciət edən bütün müharibə iştirakçılarının məşğulluğu lazımi səviyyədə təmin olunub. Bundan başqa, Prezidentin tapşırığı ilə Lənkəranda yüzlərlə rayon sakini haqqı ödənilən ictimai işlərə cəlb edilib. İcra hakimiyyəti aparatına üz tutan və ya yerlərdə təşkil olunan görüşlərdə problemini söyləyən sakinlər əməli nəticədən əsasən razı qalıblar.

Jurnalist müşahidələrimizə görə, icra başçısı əvvəl çalışdığı rayonlarda da bu mühüm amili əsas götürüb, rəhbərliklə əhali arasındakı etimad körpüsünü daha da möhkəmləndirməyə çalışıb. Müsbət haldır ki, Lənkəranda da vətəndaşlar icra hakimiyyəti aparatını özlərinin ümid qapısı sayır, buraya ürəklə gəlirlər. Pandemiyanın qızğın dövründə belə karantin qaydaları gözlənilməklə bu ənənə qorunub saxlanıb. Taleh müəllim fərdi və səyyar qəbullarla paralel şəkildə ağsaqqallar, gənclər, sahibkarlar, xidmət sahələrinin təmsilçiləri, idmançılarla dəfələrlə görüşüb. Məqsəd heç bir məsələni nəzərdən qaçırmamaq, əhalinin ən adi müşküllərinin belə çözülməsini təmin etməkdir.

İllik təqvim planına uyğun olaraq, növbəti səyyar qəbul-görüş Səpnəkəran kənd inzibati ərazi dairəsinə daxil olan Səpnəkəran, Mikolan və Yuxarı Nüvədi kəndlərinin sakinləri ilə keçirilib. Hörmətlə qarşılanan icra başçısı əhali ilə dövlət qurumları arasında bu cür birbaşa dialoqların keçirilməsinin ölkə Prezidentinin xüsusi diqqətində olduğunu vurğulayıb. Hər bir dövlət qurumunun hamı üçün əlçatanlığına nail olmaq əzmini ifadə edib. İcra başçısı bütün görüşlərində olduğu kimi, öncə qəbul-görüşdə iştirak edən şəhid ailələri, qazilər və Vətən müharibəsi iştirakçılarını dinləyib, güzəran və qayğıları ilə maraqlanıb.

Səyyar qəbul-görüşdə icra başçısı ilə birlikdə rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar təşkilatların və xidmət sahələrinin rəhbər işçiləri də iştirak ediblər. Sakinlər yaşadıqları ərazidə rayonun əksər rəhbər şəxslərinin qəbul-görüşlərdə iştirakının onların təklif və müraciətlərinə yerində baxılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıblar. Bütün müraciət və təkliflər diqqətlə dinlənilib, bir çoxunun yerindəcə həll olunması üçün icra başçısı tərəfindən aidiyyəti qurumlara göstərişlər verilib. Səmimi ab-havada keçən görüşdə sakinlər əhalinin problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə, göstərilən diqqətə görə, ilk növbədə, dövlətimizin başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Sonda Taleh Qaraşov vətəndaşların müraciətlərinə həssaslıqla baxılması ilə bağlı ölkə Prezidentinin qarşıya qoyduğu vəzifələrin bundan sonra da Lənkəran ŞİH-nin gündəlik fəaliyyətinin əsasını təşkil edəcəyini bildirib. Söz verib ki, irəli sürülən məsələlərin həllindən ötrü mütləq lazımi tədbirlər görüləcək.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

Xalq qəzeti .- 2022.- 13 aprel.- S.7.